www.525.az Facebook.com/525.az Instagram.com/525ciqezet

Nurəddin ƏDİLOĞLU

# Cəfakeş ədiblə son görüşüm

## XALQ YAZIÇISI GÜLHÜSEYN HÜSEYNOĞLU İLƏ MASALLIDA KEÇİRİLƏN AXIRINCI TƏDBİRDƏN UNUDULMAZ MƏQAMLAR

2000-ci ilin noyabr ayı idi. Masallı şəhərinin Azərbaycan xəritəsinə rayon mərkəzi kimi daxil olmasından 70 il ötürdü. Yubiley mərasiminə kimi "Masallı XX əsrdə" adlı xüsusi buraxılış hazırlamaq, eyni zamanda, operator Elnur Nurullayevlə birlikdə sənədli film çəkmək mənə həvalə edilmişdi. Film 2000-ci ilin dekabrın 29-da keçirilməli olan yubiley tədbirində göstəriləcəkdi...

Elə həmin günlərdə rayonun başçısı məni təcili çağırıb bildirdi ki, Xalq yazıçısı Anar başda olmaqla, Xalq şairi Qabil, həmyerlilərimiz Gülhüseyn Hüseynoğlu və o vaxt 78 saylı Masallı kənd-Lənkəran seçki dairəsindən Milli Məclisə deputat seçilmiş tibb elmləri doktoru, professor Vəsadət Əzizov rayona gəlir. "Təcili bir saatlıq ssenari hazırla, İcra Hakimiyyətinin binasında - iclas zalında Gülhüseyn müəllimin 75 illiyi münasibətilə görüş keçirəcəyik".

+++

O ılıq payız günü Gülhüseyn Hüseynoğlu artıq ömrünün 77-ci ilini arxada qoymuşdu. Mənim doğulduğum 1958-ci ildə Azərbaycan Yazıçılar İttifaqının üzvü olan həmyerlimiz haqqında az da olsa məlumatım var idi. Hamı kimi mən də onu hələ orta məktəbdə oxuyarkən televiziyada dəfələrlə göstərilən "Mücrü" filminin ssenari müəllifi kimi tanıyırdım... Bilirdim ki, antisovet "İldırım" Təşkilatının qurucularından biri olub. Həmin təşkilatdakı fəaliyyətinə görə o, Sibirə sürgün edilib və ömrünün 10 ildən çoxunu sürgündə keçirib, çox cəfalar, əzab-əziyyətlər çəkib...

Bir saatdan çox davam edən tədbir elə maraqlı alındı ki, vaxtın bir göz qırpımında gəlib keçdiyi hiss olunmadı.

Anar müəllim özünü çox təmkinli aparsa da, Qabil müəllimin görüşün uzanmasına səbri çatmırdı, sanki Masallı təbiətinin gözəl payız mənzərələrini görməyə can atırdı. Şübhəsiz ki, başçı qonaqları tədbirdən sonra İstisu tərəflərə, Viləşçay dəryaçasına, cənub möcüzəsi sayılan dəmirağac meşəsinə aparacaqdı. Amma birdən Qabil müəllim kürsüdə Gülhüseyn Hüseynoğlunun ünvanına uzun-uzadı təriflər söyləyən qocaman bir məktəb direktorunun çıxışını kəsib soruşdu:

- Siz Gülhüseyn müəllimin xətrini çox istəyirsiniz, eləmi?

- Bəli, əlbəttə, çox istəyirəm, - deyə məktəb direktoru cavab verdi.

- Onda xahiş edirəm, kürsüdən enin, yerinizi Gülhüseyn müəllimə verin!

Qabil müəllimin sözünə zalda əvvəl gülüş, sonra alqış səsi qopdu. Belə görünürdü ki, görüşün uzanmasını onlar da istəmirdi. Amma kürsüdən enən direktor, deyəsən, pərt olmuşdu. Və pərtliyinin əvəzini çıxmağa məqam gözləyirdi. Birdən ayağa qalxıb Gülhüseyn müəllimdən qəfildən soruşdu ki:

- Siz bədii yaradıcılığınıza görə özünüzü Masallı torpağına, doğulduğunuz Mollaoba kəndinə borclu sayırsınızmı?

Gülhüseyn müəllim çox qısa cavab verdi:

- Xeyr, çünki ailəmiz buradan Bakıya köçəndə mənim 3-4 yaşım vardı...

Gülhüseyn müəllimin cavabı təkcə sual verəni deyil, zaldakı həmyerlilərinin çoxunu məyus elədi. Bu zaman Qabil müəllim elə bil şair fəhmi ilə zaldakı məyusluğu duydu və onu aradan qaldırmaq üçün kürsüyə çıxdı. Əvvəlcə Gülhüseyn Hüseynoğluna xitabən dedi:

**Doğma ana diyarımdır Masallı,**
**Səadətim, baharımdır Masallı.**
**İlk məskənim, son mənzilim bu yerdi,**
**Beşiyimdir, məzarımdır Masallı.**

O an mənə elə gəldi ki, Qabil müəllim bu misraları bədahətən söylədi. Sonra daha da coşdu. Bəlkə də görüşdən aldığı təəssüratın təsiri altında qəlbində cücərib pöhrələnən yeni şeirindən bir neçə bəndi özünəməxsus tərzdə, həm də yumruqlarını düyünləyərək söylədi:

**Həm mənzumdu,**
**həm mənsurdu Gülhüseyn.**
**Həm məsumdu,**
**həm məğrurdu Gülhüseyn.**
**Zindanların zülmətini əridən**
**Al şəfəqdi, qızıl nurdu Gülhüseyn.**
**Masallıdan o, qucaqda ayrılıb,**
**Qönçə ikən gül budaqda ayrılıb.**
**Gülhüseyni Bakı çəkib ovxara**
**O, qınından burda çıxıb sıyrılıb.**
**Kələyi yox, hiyləsi yox, toru yox.**
**Coşmağı var, daşmağı var, zoru yox.**
**Masallıda yırğalanıb beşiyi...**
**Azərbaycan torpağında yeri çox...**

+++

O gün tədbirdən sonra İcra Hakimiyyəti başçısının kabinetində fürsətdən istifadə edib Anar müəllimə yaxınlaşdım. Və ondan Masallı ilə bağlı təəssüratlarını danışmağı xahiş etdim. Demə, Anar hələ uşaq çağlarında ilk dəfə Masallıya atası Rəsul Rza ilə birlikdə ova gəlibmiş. Onu da qeyd edim ki, ötən əsrin 50-ci illərində Səməd Vurğun, Süleyman Rüstəm, Qılman İlkin, Zeynal Xəlil və Azərbaycanın başqa görkəmli adamları rayonun Xırmandalı, Qızılağac, Təzəkənd ərazilərində ov eləmişdilər. Anar müəllimin dedikləri lentin yaddaşına yazılırdı:

- Mən atamla birinci dəfə Masallıya quş ovuna gəlmişəm. Atamın bir ovçu dostu var idi. Sonra təbii ki, Masallıda dəfələrlə olmuşam. Masallı Azərbaycanın gözəl guşələrindən biridir. Mən çox sevinirəm ki, Masallıda ədəbiyyata və onun nümayəndələrinə hörmətlə yanaşırlar, yubileylərini, gecələrini keçirirlər...

Sual: Qarşıdan Masallının rayon mərkəzi kimi yaranmasının 70 illiyi gəlir. Bir yazıçı və millət vəkili kimi Masallıya və masallılılara ürək sözünüzü, arzunuzu eşitmək xoş olardı.

- ...Masallıya nə arzu edə bilərəm? Bütün Azərbaycana nə arzu edirəmsə, Masallıya da onu arzu edirəm: Əmin-amanlıq, xalqın rifahının yaxşılaşması... Gün o gün olsun ki, işğal olunmuş torpaqlarımızın almanması Azərbaycanın hər yerində, eləcə də Masallıda bayram edək!"

Sonra söz Masallıda dünyaya göz açmış tanınmış tarixçi-etnoqraf, maarifçi, folklorşünas Teymur Bayraməlibəyovdan, şair-bəstəkar, alim, həkim, poliqlot Mir Kazım Aslanlıdan düşdü. Anar müəllim dedi ki, Teymur Bayraməlibəyovun qızı Məryəm xanımı çox yaxşı tanıyırdım. Bir ara Bakıda bizimlə qonşuluqda yaşayırdı.

Mən isə Məryəm xanımın adını, demək olar ki, ilk dəfə eşidirdim. Sonra bildim ki, o, Lənkəranda ilk qadın Xeyriyyə cəmiyyətinin yaradıcısı, qızlar məktəbinin rəhbəri, eyni zamanda, Azərbaycanda savadsızlığın ləğv olunması üzrə ilk qadın kurslarının təşkilatçılarından biri olub...

Qabil müəllim isə Sarəng təxəllüsü ilə şeirlər yazan Mir Kazım Aslanlını yaxşı xatırladığından söz açdı: - Rəhmətlik nəhəng adam idi. Xatırlayıram, general Həzi Aslanov Sovet İttifaqı Qəhrəmanı adına təqdim olunanda onun "Kommunist" qəzetində bir şeiri dərc olunmuşdu: "Alo, alo, Lənkəran..."

...Masallının 70 illik yubileyini o zaman "Lider" TV-də çalışan Zöhrə xanım Əliyeva ilə birlikdə apardıq. "Masallı XX əsrdə" sənədli filmimizdən bir parça nümayiş olundu.

+++

Azərbaycan nəşriyyatında işlədiyim vaxtlarda Gülhüseyn müəllimlə həmişə Elmlər Akademiyasının bağında rastlaşardım. Heç vaxt yanından salamsız-kəlamsız ötüb keçməzdim. Bəzən tanınmış yazıçı Əlibala Hacızadə də bu bağda olardı. Əlibala müəllim mənim adımı və soyadımı bilsə də, hər dəfə Gülhüseyn müəllim təsbehini çevirə-çevirə məndən adımı soruşardı... Gülhüseyn Hüseynoğlunu sürgün həyatı sarsıtmamışdı. Qabil müəllim demişkən:

**"Vətən!" - deyib sinəsinə çırpmadı,**
**Hökm oxundu - gözünü də qırpmadı..."**

Amma Aytək adlı yeganə və gənc qızının faciəli ölümü Gülhüseyn müəllimi bərk sarsıtmışdı. O gündən elə bil başqa aləmdə gəzib-dolaşırdı Gülhüseyn müəllim. Aytək universitetin əlaçı tələbələrindən olub. Evlərinin pəncərəsini siləndə 5-ci mərtəbədən yıxılıb. Qabil müəllimin oğlu Mahir Aytəklə bir qrupda oxuyurmuş. Gülhüseyn müəllim Aytəkinin yas mərasimində Mahirə dərdini belə danışıb: "Deyirdim ki, 4 övladım olsun. Öləndə hərəsi cənazəmin bir qolundan tutub aparsınlar. Üç oğlum oldu, bir qızım. İndi Aytək yoxdur... Stalinin dövründə "İldırım"çıların məhkəməsində üzümə 25 il sürgün oxudular, tüküm də tərpənmədi. Başımı dik tutub qulaq asdım. Amma Aytək mənim belimi qırdı..."

Bu cümlələr də Gülhüseyn müəllimin tələbəsi Mahirə aiddir: "Beşinci kursda "Xüsusi kurs"lar keçirilməyə başlandı. Mikayıl Müşfiqdən isə mühazirəni əlbəttə ki, müşfiqşünas, dağlıların "Fəxri dağlı" adına layiq gördüyü Masallı balası Gülhüseyn Hüseynoğlu deyirdi. Demirdi - nağıl edirdi, o dövrü yaşayırdı. Bizi də o dövrə aparırdı. Hərdən özündən çıxıb Səməd Vurğunun, Məmməd Rahimin, Süleyman Rüstəmin ünvanına nələr demirdi? Arxivdən çıxardığı materiallarla dediklərini sübuta yetirirdi. İnanmıram ki, Mikayıl Müşfiqin doğma oğlu olsaydı belə, onu Gülhüseyn müəllim qədər sevə, müdafiə edə bilərdi".

+++

Xalq yazıçısı Gülhüseyn Hüseynoğlu ilə son dəfə "Qarabağa aparan yol" qəzetinin redaksiyasında görüşdüm. Dəhlizdə görcək otağa dəvət edib, çay təklif etdim... Gülhüseyn müəllim 90 yaşında dünyasını dəyişdi. Rəşid Behbudov adına Mahnı Teatrında keçirilən vida mərasimində mollaobalı professor Vaqif Nəsirlə birlikdə iştirak etdik...

Qabil müəllimlə isə sonuncu görüşümüz Vaqif Yusiflinin oğlunun toyunda oldu. O gün "Azərbaycan" jurnalının məsul katibi Tofiq Mahmudla foyedə dayanmışdım, gördüm ki, Qabil müəllim pilləkəndən ağır-ağır aşağı enir.

- Qabil müəllim, siz evə gedirsiniz? - deyə soruşdum. O, mənə baxıb, sanki baxışları ilə "Əlbəttə, getmək zamanıdır" bildirdi.

Mən: - Heyif, - dedim, - sizinlə rəqs etmək arzum ürəyimdə qaldı...

Bu zaman pilləkənləri enərkən ona kömək edən gənc bir oğlan mənə tərs-tərs baxdı. Tofiq müəllim dedi ki, bu, Qabil müəllimin oğlu Mahirdir. Doğrusu, pərt oldum.

Yəqin Mahir bəy düşündü ki, kefliyəm, ona görə mənə baş qoşmadı...

...Aradan illər ötüb-keçib. Hərdən o vaxt Masallıda keçirilən görüşlə bağlı məqamları yada salıram. Bu yazını da həmin günlərdən xatirə olaraq qələmə aldım: unudulmaz söz sənətkarlarımız Gülhüseyn Hüseynoğlunun və Qabilin ruhuna böyük ehtiramla...

